**2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 yanvar 2015-ci il tarixli 156 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 77 saylı Astara seçki dairəsindən Astara bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Kazımov Ədalət Muxtar oğlu 2015-ci il yanvarın 10-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, 77 saylı Astara seçki dairəsi dairə seçki komissiyasının 5 yanvar 2015-ci il tarixli 1/2 saylı qərarını mübahisələndirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Araşdırma prosesində ərizəçi ilə əlaqə yaradılmış, araşdırmada iştirak etmək hüququ barədə ona məlumat verilmiş və müraciətdə qeyd edilən halların təsdiq edilməsilə əlaqədar əlavə dəlillər təqdim etmək hüququnun olması nəzərinə çatdırılsa da, o, belə dəlillərə malik olmadığını bildirmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, ərizəçi Ə.M.Kazımovun 77 saylı Astara seçki dairəsi üzrə Astara bələdiyyəsini əhatə edən seçki məntəqələrində seçkilər günü qanun pozuntularının olmasını iddia edən müraciətinə 2015-ci il yanvarın 5-də mahiyyəti üzrə baxılmış və onun təmin edilməməsi barədə həmin dairənin dairə seçki komissiyası tərəfindən 1/2 saylı qərar qəbul edilmişdir.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması nəticəsində müəyyən olunmuşdur ki, 77 saylı Astara seçki dairəsi dairə seçki komissiyasının mübahisələndirilən qərarının əsassız hesab edilməsi üçün hüquqi əsaslar mövcud deyildir.

Belə ki, 77 saylı Astara seçki dairəsi dairə seçki komissiyasının müraciətdə mübahisələndirilən məntəqə seçki komissiyası üzvlərinin, Astara bələdiyyəsi üzvlüyünə qeydə alınmış digər namizədlərin, səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini birbaşa müşahidə etmiş müxtəlif siyasi partiyaları təmsil edən müşahidəçilərin izahatlarına əsasən səsvermə günü seçki prosesində və səslərin hesablanmasında həmin seçki məntəqələri üzrə seçkilərin nəticələrinə təsir edə biləcək pozuntular baş verməmiş, səslərin hesablanması başa çatdıqdan sonra səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının protokolu həmin seçki məntəqələrində tərtib edildikdən sonra Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydada dairə seçki komissiyasına göndərilmişdir.

Yuxarıda adı çəkilən seçki dairəsinin 1, 2, 3, 4, 5, 6 və 7 saylı seçki məntəqələri məntəqə seçki komissiyalarının həlledici səs hüquqlu üzvlərinin, Astara bələdiyyəsi üzvlüyünə qeydə alınmış digər namizədlər S.A.Gənciyev, E.B.Nəzərov, E.B.Məmmədov, B.B.Əliyev, Ş.B.Abbasov və səsvermə prosesini birbaşa müşahidə etmiş müxtəlif siyasi partiyaları təmsil edən müşahidəçilər S.H.Bağırov, R.R.Məmmədov, F.F.Ağasiyev, R.Musayev, A.M.Mikayılov, R.M.Rzayev, S.H.Şiriyeva, A.E.Tarverdiyeva, F.F.Abdullayeva, N.Ə.Əbilov, S.İ.Sultanov, S.X.Seyfullayeva, P.A.Ağaxanova, N.R.Mikayılova və R.B.Nəsirova öz izahatlarında bildirmişlər ki, səsvermə prosesində və səslərin hesablanması zamanı heç bir qanun pozuntusuna yol verilməmiş, səsvermənin nəticələri haqqında protokol seçki məntəqəsində

qanunda nəzərdə tutulmuş qaydada tərtib edildikdən sonra onun bir nüsxəsi məlumat lövhəsindən asılmış, həmin protokolun surəti onu almaq hüququ olan şəxslərə verilmişdir.

Araşdırma nəticəsində şikayətin təmin olunması və 77 saylı Astara seçki dairəsi dairə seçki komissiyasının 5 yanvar 2015-ci il tarixli 1/2 saylı qərarının ləğv edilməsi üçün hüquqi əsaslar müəyyən edilməmişdir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. 77 saylı Astara seçki dairəsindən Astara bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Kazımov Ədalət Muxtar oğlunun 10 yanvar 2015-ci il tarixli 156 saylı müraciəti əsassız olduğundan təmin edilməsin və həmin seçki dairəsi dairə seçki komissiyasının 5 yanvar 2015-ci il tarixli 1/2 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |